## Azərbaycan dili

1. Hansı cümlələrdə baş üzvlər eyni nitq hissəsi ilə ifadə olunmuşdur?
1. Ay uşaqlar, sizcə, biz haradayıq?
2. Bulağa gedənlər hələ də qayıtmamışdılar.
3. İgidlər hələ də səngərdədirlər.
4. Abituriyent məktəbində onbirincilər bu il daha çoxdurlar.
5. Ağıllı fikirləşincə dəli vurub çayı keçdi.
A) 2, 3 B) 4, 5 C) 1, 4
D) 1, 2 E) 3, 5

2. Mürəkkəb adları müəyyən edin.
1. Şuşa qalası 2. Xəzərin sahili
3. Gülxanım 4. Səadət sarayı
5. "Nəsimi" filmi
A) 1, 2, 3 B) 1, 4, 5 C) 2, 3, 4
D) 3, 4, 5 E) 1, 2, 5

3. Klasteri tamamlaya bilər:


1. Yazılışı və deyilişində üç fərqli məqam var.
2. Eyni samit iki dəfə işlənib.
3. Samitlə başlanan şəkilçi qoşulduqda cingiltili samit kar qarşılığı kimi tələffüz olunur.
4. Saitləri qalın, açıq, dodaqlanmayandır.
5. Sözə saitlə başlanan şəkilçi artırıldıqda sözün yazılışı dəyişir.
A) 1, 2 B) 3, 4 C) 1, 5
D) 2, 5 E) 1, 4

4. 
sxeminə uyğun olan cümləni müəyyən edin.
A) Səhər durandan sonra hamı idman meydançasına getdi.
B) Şərq mədəniyyəti, şəksiz, bu gün yenidən tədqiq olunmalıdır.
C) Azər gələcək planları haqqında bizə məlumat verdi.
D) Anam uşaqlar yatdıqdan sonra işığı söndürdü.
E) Onun əsərləri məşhur nəşriyyatlar tərəfindən dəfələrlə nəşr olunmuşdur.

5. Cərgələrin birində hər iki söz  sxeminə uyğundur:
A) hərləndirmək, fədakarlığı
B) faydalanmaq, əməkdaşımız
C) əzizlənmək, əsaslanmaq
D) əkinçilər, ələkçilər
E) çiyindaşlarımız, vətəndaşların

6. Nümunələrə əsasən cədvəldəki doğru fikirləri müəyyən edin.
■ Gəmilər limana yaxınlaşanda bir neçə dənə fişəng atıldı.

▲ Əyri yolla qazanılmış var-dövlət və ad-san bulud kimi yox olub gedir.

| ■ | ▲ |
|---|---|
| 1. Müəyyən şəxsli cümlədir.<br>2. Xəbəri qayıdış növdə olan feillə ifadə olunub.<br>3. Zərflik feili bağlama tərkibi ilə ifadə olunub. | 4. Həm tabelilik, həm də tabesizlik əlaqəsi var.<br>5. Təyin feili sifətlə ifadə olunub.<br>6. Feili bağlama tərkibi zərflikdir. |

A) 2, 4, 6 B) 1, 3, 4 C) 1, 2, 4
D) 2, 3, 5 E) 3, 4, 5

7. Nümunədəki köməkçi nitq hissələrinin işlənmə ardıcıllığını müəyyənləşdirin.
*Elə bil kitablarla çox məşğul olduğu üçün real həyatdan da uzaq düşmüşdü.*
A) qoşma, qoşma, bağlayıcı
B) ədat, qoşma, bağlayıcı
C) modal söz, qoşma, qoşma, bağlayıcı
D) ədat, qoşma, bağlayıcı, ədat
E) modal söz, qoşma, qoşma, ədat

8. Cümlələrin birində qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədə ***olmayan*** söz işlənib:
A) Zaman ötdükcə dostluğun qiyməti artır.
B) Heç bir şey təcrübənin yerini tuta bilməz.
C) Öz işığına güvənən başqasının parlamasından narahat olmaz.
D) Ağacın budağı sındığından babam təəssüf hissi keçirirdi.
E) Düzlər, yamaclar – bir sözlə, hər yer yamyaşıl idi.

9. Hansı cümlədə ümumiləşdirici söz işlənmişdir? (Durğu işarələri buraxılıb.)
A) Meşədə hər cür ağac palıd vələs fıstıq və s. artıq yarpaqlamışdı.
B) Uşaqların əksəriyyəti savadlı və fəaldır.
C) Bu sevinci yaşayanlar küçələrə çıxanlar bir-birilərini təbrik edirdilər.
D) Uşaqlar – Məmməd və Əli gündəliklərini atalarına göstərdilər.
E) Bu şəxs kənddə obada və binələrdə şöhrət tapmışdı.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

10. Feili bağlama tərkibi işlənmiş cümləni müəyyən edin.
A) Adil, danışanda nitqinə diqqətli ol.
B) Axşam yazdıqlarını səhər bir də diqqətlə yoxladı.
C) Çırağı yandırıb, amma özü otaqda yoxdur.
D) Dağın ətəyinə çatar-çatmaz çadırlar üçün yer seçdik.
E) Həyətdə oynayan uşaqların səsi hər tərəfi bürümüşdü.

11. Hansı cümlədə zərflə ifadə ***olunmayan*** zərflik var?
A) Külək əsdiyi üçün ağacdan tökülən meyvələri kisələrə yığdıq.
B) Müəllim uşaqlara türkcə yazıb-oxumağı öyrədirdi.
C) Yaxın qonşu uzaq qohumdan yaxşıdır.
D) Çıraq otağı yaxşı işıqlandırmırdı.
E) Yağış küçələrdə gölməçələr yaratmışdı.

12. Cədvəl əsasında cümlələrlə bağlı uyğun fikirləri müəyyən edin.
- *Oxunacaq ən böyük kitab insandır.*
- *Böyük insanlar həyatın mənasını özündə axtarırlar.*
- *Arzulamaq kifayət deyil, arzularımızı həyata keçirməliyik.*

| Cümlələrdən yalnız birinə aiddir. | Hər üç cümləyə aiddir. | Cümlələrin heç birinə aid deyil. |
|---|---|---|
| 1. Təyini sifətlə ifadə olunub.<br>2. Köməkçi nitq hissəsi işlənmişdir. | 3. İsmi birləşmə işlənib.<br>4. Azı iki isim işlənib. | 5. Əvəzlik işlənib.<br>6. Zərflik işlənib. |

A) 1, 3, 5 B) 2, 3, 5 C) 1, 2, 4
D) 2, 4, 6 E) 3, 5, 6

13. Hansı nümunədə cümlə üzvləri həm nitq hissəsi, həm də söz birləşməsi ilə ifadə olunmuşdur?
A) Döyüş hazırlıqları diqqət mərkəzindədir.
B) Gecə səngərlərdə sakitlik idi.
C) Bir qədər düşündü, sonra həyətdən çıxdı.
D) Bizim sinif dərs ilini uğurla başa vurdu.
E) Gecə yatmadığımdan gözümün acısını aldım.

14. İki nitq hissəsi kimi düşünülə bilən söz işlənmiş cümləni müəyyən edin.
A) Yaxşı dost dar gündə tanınar.
B) Bu yeməklərin hamısı şirindir.
C) Söz verdin, gərək üztündə durasan.
D) Yağışdan sonra göyqurşağı göründü.
E) Təəssüf ki, çiçəkləri dolu vurdu.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

15. Eyni nitq hissəsindən yaranan sözləri müəyyən edin.
1. yoldaş 2. vətənpərvərlik
3. əkinçi 4. mənimsəmək
5. güclənmək
A) 1, 2, 3 B) 2, 3, 4 C) 2, 4, 5
D) 1, 4, 5 E) 1, 3, 5

16. Hansı sözlər kök və qrammatik şəkilçilərdən ibarətdir?
1. dünənkilərin 2. yoxlamışam
3. bildiklərim 4. söyləmişdik
5. başlamaq
A) 1, 2, 3 B) 3, 4, 5 C) 2, 3, 4
D) 1, 2, 4 E) 1, 4, 5

17. Hansı cərgədəki bütün sözlər sinonimlik və antonimlik xüsusiyyətinə malikdir?
A) gözəl, bərk, oturmaq
B) çanta, qələm, dəftər
C) insan, dağ, yağ
D) stol, otaq, ev
E) qaçış, vuruş, söz

18. Nümunələrin birində sifətin xüsusiyyətini daşıyan isim, ismin xüsusiyyətini daşıyan sifət işlənmişdir:
A) Məşqdə çətin olan döyüşdə asan olar.
B) Saxsı qabdakı sərin sudan balacalara da verdim.
C) Ağıl insana ağıllı yaşamaq üçün verilir.
D) Uşaqlarımıza verə biləcəyimiz töhfənin ən qiymətlisi ağıldır.
E) Zənginlər çox tox olur, ancaq doymuş olmur.

19. Hansı cümlədə ismin bütün qrammatik şəkilçilərindən istifadə olunub?
A) Dünyanın ən yoxsul insanı puldan başqa heç nəyi olmayandır.
B) Varlanmaq üçün işləmək və qənaət etmək bəs edir.
C) Sülh bəşəriyyətin xilası, müharibələr isə onun cinayətidir.
D) Bilikdən daha zəngin xəzinə ola bilməz.
E) Sevginin olduğu hər yerdə həyat vardır.

20. Məqsəd və intonasiyasına görə digərlərindən fərqlənən cümlədir:
A) Bizim şərtlərimizlə gərək razılaşsın.
B) Barı axşamacan yağmaya.
C) Dedikləriniz təki düz ola idi.
D) Kaş ki insanlara dəyər verilə.
E) Gərək saat altıya qədər oyanasan.

21. Hansı cümlələrdə ikinci dərəcəli üzvlər eyni nitq hissəsi ilə ifadə olunub?
    A) Fəhlələr zavodun həyətində, iki-iki, üç-üç söhbət edirdilər.
    B) Dədə Bəhmən hamının hörmət etdiyi adam idi.
    C) Gözləri şeh ilə dolmuş çiçəklər yavaş-yavaş açılırdı.
    D) Qonaqlar yumşaq döşəklərin üstündə otururdular.
    E) Ata oğluna dəri gödəkçə aldı.

22. "*Yaşamaq eşqilə yaradır insan*" (S.Vurğun) nümunəsində zərfliyin hansı məna növü işlənmişdir?
    A) tərzi-hərəkət zərfliyi
    B) zaman zərfliyi
    C) miqdar zərfliyi
    D) səbəb zərfliyi
    E) məqsəd zərfliyi

**Açıq tipli test tapşırıqları:**

23. "*Onlar dincəlmək üçün bir müddət kənddə qaldılar*" nümunəsində hansı cümlə üzvləri ***işlənməmişdir***?
    1. mübtəda 2. xəbər
    3. tamamlıq 4. təyin
    5. zərflik

24. Zərfliyi təyin edən təyin hansı cümlələrdədir?
    1. Ayaz əlini uzadıb yaşadıqları evi göstərdi.
    2. Dağlara, meşələrə gözəl bir axşam enirdi.
    3. Körpələri yedirtmək üçün balaca otağa apardılar.
    4. Eldar istedadlı və qabiliyyətli şagirddir.
    5. Dovşanın gözləri qırmızı mərcan kimi yanırdı.

25. Həmcins üzvlü cümlələrdir:
    1. Gecə sakit və sirli görünürdü.
    2. Rəngbərəng, ətirli çiçəkləri görəndə uşaqlar atılıb-düşdülər.
    3. Vaxt keçdikcə, yaş artdıqca Həsən kişinin yaxınlarının sayı da artırdı.
    4. Narın-narın yağış yağır, səsi pıçıltıya bənzəyirdi.
    5. Ana qızı və oğlu üçün çanta aldı.

26. Yalnız leksik şəkilçi kimi işlənir:
    1. $-ıq^{4}$ 2. $-lıq^{4}$ 3. $-dır^{4}$
    4. $-lan^{5}$ 5. $-ır^{4}$ 6. $-dakı^{2}$

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

27. Uyğunluğu müəyyən edin.
    1. Mübtədası və tamamlığı olan cümlə
    2. Mübtədası və təyini olan cümlə
    3. Tamamlığı və zərfliyi olan cümlə
    a. Müavinini yanına çağırıb ona ciddi tapşırıq verdi.
    b. Qatar yeni təmir edilmiş stansiyaya yaxınlaşdı.
    c. Birinci sinfə gedənləri alqışladılar.
    d. Mən onu başa düşmürdüm.
    e. Tək qalıb biraz fikirləşmək lazımdır.

***Mətni diqqətlə oxuyun və verilən tapşırıqları yerinə yetirin.***

**Qoruq**

Ovçu Pirim babanın nəsihətlərini nəvə-nəticələri diqqətlə eşidirdilər. Bacardıqca can-başla bütün buyuruqlarına əməl edirdilər. Onlar Kür qırağının meşələrində gözə dəyən uçarlara, qaçarlara qulluq edirdilər, dən səpib, yem qoyub gedirdilər.

| Beləliklə, bu yerlərdə get-gedə quşlar da, heyvanlar da insanlardan qaçırdılar. |
|---|

Görürdülər ki, ovçu Pirim tüfəngə o vaxt əl atır ki, canavarlar, çaqqallar ceyran kimi biçarələrə hücum edir, parçalayıb tələf edirdilər. Bu qayda ilə əfsanəvi bir qoruq yaranırdı. Bu qəribə əfsanəvi qoruğu Pirim baba da, onun nəvə-nəticələri də bərk qoruyurdular. Get-gedə qoruq da genişlənirdi. Pirim baba bacardıqca öz qoruğunu yadlardan qoruyurdu.

28. Mətnin birinci cümləsində düzgün işlədilməyən sözü müəyyən edib onu uyğun sözlə əvəz edin.

29. Çərçivə daxilində hansı söz mətnin məzmununa uyğun ***gəlmir***?

30. Mətndəki məcazi mənalı iki birləşməni müəyyən edin.

## Tarix

31. Neolit dövrünə aid xüsusiyyətlərdən ***deyil:***
1. Əhali oturaq həyata keçmişdi
2. Dulusçular saxsı qablar hazırlayırdılar
3. E.ə VIII minilliyin sonlarında VI minilliyin ortalarına qədər davam etmişdir.
4. Qarabağın dağlıq hissəsində zəngin mis yataqları aşkarlanmışdı
5. Yaylaq maldarlığı meydana gəldi
6. Qadının mövqeyi zəifl ədi və kişilərin nüfuzu yüksəldi

A) 1,2,6 B) 4,5,6 C) 2,3,4
D) 3,4,5 E) 2,5,6

32. Çində Taypinlər üsyanının baş verdiyi dövrə uyğun gəlir:
A) Nankin müqaviləsinin imzalanması
B) Sun Yatsenin "Birləşmiş ittifaq adlı təşkilat yaratması
C) Yaponiyada Mutsuxitonun taxta çıxması
D) İkinci Tiryək müharibəsinin başlanması
E) Hindistan Milli Konqresinin yaradılması

33. Hadisə - nəticə əlaqələrinin ***doğru*** göstərildiyi cavabı müəyyən edin:

| № | Hadisələr | Nəticələr |
|---|---|---|
| 1 | Akkad dövlətinin süquta uğraması | İkiçayarasının Kutilərin hakimiyyəti altına düşməsi |
| 2 | E.ə I minilliyin əvvəllərində Assuriyanın Urmiya bölgəsinə hücumları | Manna dövləti tərəfindən məğlub edilməsi |
| 3 | Kuti və Lullubi dövlət qurumlarının ləğv edilməsi | İkiçayarasının Akkad hökmdarı tərəfindən birləşdirilməsi |
| 4 | Mannanın Şuandahul və Durdukka şəhərlərində üsyan baş verməsi | Üsyançı şəhərlərin II Sarqon tərəfindən darmadağın edilməsi |
| 5 | Türk tayfalarının Qara dəniz sahillərindən Ön Asiyaya gəlmələri | Manna dövlətinin güclənməsi |

A) 1,4,5 B) 1,2,3 C) 2,3
D) 2,4,5 E) 1,3

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

34. Arslanşahın taxta çıxarılması nəticəsində:
A) Arran iqta kimi Eldənizə bağışlandı
B) Şəmsəddin Eldəniz İraq sultanlığı taxtının əsl sahibi oldu
C) Atabəylər dövlətinin əsası qoyuldu
D) Azərbaycanın idarəsi Qızıl Arslana tapşırıldı
E) Eldənizlər dövlətinin tənəzzülü başladı

35. Verilən xüsusiyyətlərin aid olduğu feodal dövlətlərini müəyyənləşdirin:




a) Şərqi Gürcüstanı və Şirvanşahlar dövlətini asılı hala saldı
b) Tiflis əmiri və Rəvvadi hökmdarı ilə dostluq münasibətləri yaradıldı
c) 910-cu ildə Slavyan dəstələrini darmadağın etdi.

A) 1-c; 2-b; 3-a B) 1-a; 2-b; 3-c
C) 1-b; 2-a; 3-c D) 1-a; 2-c; 3-b
E) 1-c; 2-a; 3-b

36. Uyğunluğu müəyyən edin:
1. Satuk Buğra xan
2. Sultan Mahmud
3. Alptəkin

a. Abbasi xəlifəsi tərəfindən sultan tituluna layiq görüldü
b. 942-ci ildə xaqan titulunu qəbul etdi
c. Əfqanıstanın cənubunda yeni dövlətin əsasını qoydu
d. Dəndənəkan döyüşündə məğlub oldu

A) 1-b; 2-a,d; 3-c B) 1-b; 2-a; 3-c
C) 1-c; 2-b; 3-a D) 1-b; 2-d; 3-c
E) 1-b,c; 2-d; 3-a

37. Cavanşirin hökmdar hakimiyyəti dövrünə uyğun gəlir:
A) Albaniyanın daxili müstəqilliyinə son qoyulması
B) Hilat şəhəri ətrafında xəzər hücumunun dayandırılması
C) Bizans imperatoru II Konstantin ilə görüşməsi
D) Sasani şahı III Yezdigərd tərəfindən mükafatlandırılması
E) Ktesifonun müdafiəsində iştirak etməsi

38. *Ölkə özünün ən güclü dövrünü yaşamağa başlayır. Fələstin və Suriya işğal edilir. Dövlətin şimal sərhədləri ilk dəfə Fərat çayına çatır və cənubda isə Nubiya tabe edilir.*
Mətndə bəhs olunan fəaliyyətlərin aid olduğu hökmdardan fərqli olaraq II Ramzes:
1. Hakimiyyət uğrunda mübarizə aparması dövləti zəiflətdi
2. E.ə II minillikdə Misiri idarə etmişdir
3. Vahid Misir dövlətini yaratdı
4. E.ə XIII əsrin əvvəllərində het tayfaları ilə sülh bağladı
A) 1,2 B) 2,3 C) yalnız 4
D) 3,4 E) yalnız 2

39. Ədirnə müqaviləsinə əsasən Osmanlı dövlətinin razılaşdığı şərtlərə ***aid deyil:***
A) Yunanıstanın müstəqilliyini qəbul etdi
B) Rusiyanın Cənubi Qafqazdakı işğallarını tanıdı
C) Təzminat ödəməli idi
D) Moldova, Valaxiya və Serbiyaya müxtariyyət hüququ verdi
E) Kipr adası İngiltərəyə verilməli idi

40. Qaraqoyunlu Qara Yusif və Ağqoyunlu Uzun Həsənin fəaliyyətlərinə aid ***ümumi*** cəhətdir:
A) Mərkəzləşmiş dövlətin qurulması
B) II Bəyazidlə dostluq münasibətlərinin yaradılması
C) Teymuri qüvvələrinin məğlub edilməsi
D) Osmanlı hökmdarı II Mahmud ilə mübarizə
E) I İbrahimin asılı hala salınması

41. Uyğunluğu müəyyən edin:

Səfəvi dövləti

| **1.** Şah II Abbas | **2.** Şah I Abbas |
|---|---|
| a. Rəiyyət və sənətkarların dövlət xəzinəsinə olan vergi borclarının ləğv edilməsi<br>b. Tamğa vergisinin ləğv olunması fərmanı<br>c. İngiltərə ilə «Əbədi dosluq» haqqında müqavilə bağlanması | a. Osmanlı ilə Qəsri – Şirində sülh bağlanması<br>b. Ordubad şəhərində örtülü bazarın inşa edilməsi<br>c. Avropadan mətbəə avadanlığının gətirilməsi təşəbbüsü |

A) 1-b,c; 2-a B) 1-a; 2-b
C) 1-c; 2-b,c D) 1-b; 2-a
E) 1-c; 2-a,c

42. Böyük Hun hökmdarı Mete tanhunun fəaliyyətinə aiddir:
A) Böyük Çin səddinin tikintisinə başlandı
B) Ölkə ərazisi 36 vilayətə bölündü və hər birinə məmur təyin edildi
C) Hun dövləti imperiyaya çevrildi
D) Pinçen döyüşündə məğlub oldu
E) Çin dövlətinin himayəsini qəbul etdi

43. Eyler – Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin:




a. İrəvan və Naxçıvan xanlıqları Fətəli şahın hakimiyyəti altında qaldı
b. Yalnız Rusiya Xəzər dənizində donanma saxlamaq hüququna malik idi
c. Rusiya ilə Osmanlı arasında imzalandı
d. Şah dövləti Rusiyaya hərbi təzminat ödəməli idi
e. Müqaviləni imzalayanlar öz arzusu ilə Rusiya himayəsinə qəbul oluna bilərdi
A) 1-a; 2-c; 3-b,d B) 1-c; 2-b; 3-a,d
C) 1-b; 2-a; 3-d D) 1-d; 2-c,b; 3-a
E) 1-a; 2-d; 3-b

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

44. Xəritədə ulduz ilə işarələnmiş xanlıqlar üçün ortaq cəhəti müəyyən edin:



A) Rusiya ilə Georgiyevsk müqaviləsinin imzalanması
B) Quba xanlığına tabe edildilər
C) 1819-cu ildə ləğv edildi
D) II Rusiya – İran müharibəsi dövründə Rusiya tərəfindən işğal edildi
E) Bir müddət xanlıq Qacar sülaləsi tərəfindən idarə edilmişdi

45. Uyğunluğu müəyyən edin:




A) 1,4,6 B) 3,4,6 C) 1,2,5
D) 3,4,5 E) 2,4,6

46. Rəşt və Gəncə müqavilələri üçün oxşar cəhətləri müəyyən edin:
1. Rusiya ilə Səfəvi dövləti arasında imzalandı
2. Rus tacirlərinə Səfəvi dövləti ərazisində ticarət imtiyazları verildi
3. Müqavilə Səfəvi dövləti adından Nadir şah tərəfindən imzalandı
4. Rus qoşunları Xəzərsahili vilayətlərdən tamamilə çıxarıldı
A) 2,3 B) 1,4 C) 2,4
D) 1,2 E) 3,4

47. I Mətndə bəhs edilən türk dövləti ilə II Mətndə bəhs edilən dövlət üçün ümumi cəhətdir:
**Mətn-I**
*Altay dağlarının ətəklərində məskunlaşan Aşina nəsli Avar dövlətinə tabe olub, dəmirçilik ilə məşğul idi.*
*Avarlara qarşı üsyan qaldıraraq dövlət quruldu.*
**Mətn-II**
*Qobi çölündən Xəzər dənizi sahillərinə qədər uzanan geniş ərazidə dövlət qurulmuşdu. Şimal qonşuları Göytürklər idi. VI əsrin əvvəllərində güclənərək ərazisi Hindistanın şimalından Aral gölünə, Tibet dağlarından Xəzər dənizi sahillərinə qədər uzanırdı.*
1. Sasanilərin məğlub edilməsi
2. Göytürk xaqanlığı ilə mübarizə
3. Ərəb dövlətinə məğlub olmaları
4. VII əsrdə süquta uğramaları
A) Yalnız 1 B) 1,2 C) 3,4
D) Yalnız 2 E) 1,3

48. Şamaxı xanlığının XVIII əsrin 60-cı illəri və Gəncə xanlığının XVIII əsrin 80-ci illəri tarixinə aid oxşarlığı müəyyən edin:
A) İkihakimiyyətliliyin sona çatması
B) Fətəli xan tərəfindən tabe edilmələri
C) Qarabağ xanlığından asılı vəziyyətə düşmələri
D) Xanlığın yaranması
E) Qacarlardan asılı vəziyyətə düşmələri

49. Xaç yürüşləri ərəfəsində Papanın xristian dünyasını səfərbər etmək üçün istifadə etdiyi ən mühüm bəhanələrdən biri idi:
A) Bizans imperiyasının Peçeneq hücumlarına qarşı mübarizə üçün Roma papasından yardım tələbi
B) Təbəriyyə gölü yaxınlığında Səlahəddin Əyyubinin qalib gəlməsi
C) Konstantinopolda Latın imperiyasının yaradılması
D) Xristian kilsəsinin katolik və pravoslav məzhəblərinə parçalanması
E) Səlcuq dövlətinin meydana gəlməsi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

50. Xanlıqlar dövrü üçün xarakterik ***deyil:***
A) Elbəyilər feodal qrupuna daxil idi
B) Tiyul geniş yayılmış şərti torpaq mülkiyyəti forması idi
C) Elatlar oturaq əhalidən fərqli olaraq daha az vergi verirdi
D) Şəhər idarəsində darğa polis vəzifəsini icra edirdi
E) Çöpbaşı rəiyyətdən toplanan əsas məhsul vergisi idi

51. Osmanlıda Köprülü Mehmet paşanın fəaliyyəti dövrünə ***aid deyil:***
A) İslam alimləri arasındakı mübahisələrə son qoydu
B) XVII yüzilliyin II yarısında islahat keçirdi
C) Orduda ciddi nizam-intizam yardıldı
D) Anadoludakı üsyanlar yatırıldı
E) Xəzinəyə qənaət etmək üçün bəzi yeniçəri birlikləri ləğv olundu

52. XX yüzilliyin əvvəllərində İngiltərəni Fransa və Rusiya ilə yaxınlaşdıran səbəb idi:
A) "Kontinental blokada haqqında" dekret imzalanması
B) Osmanlıya qarşı Müqəddəs ittifaqın yaradılması
C) I Napoleonun Berlinə daxil olması
D) Almaniya ilə münasibətlərin kəskinləşməsi
E) Borodino döyüşündə fransız ordusunun qalib gəlməsi

**Açıq tipli test tapşırıqları:**

53. Ağa Məhəmməd xan Qacarın fəaliyyətinə aiddir:
1. Şuşa qalasının mühasirəyə alınması
2. Gürcüstanın tutulması
3. Xorasanın bütünlüklə Qacarlar dövlətinə birləşdirilməsi
4. Cənubi Qafqaza 1797-ci il yürüşünün həyata keçirilməsi

54. XIX əsrə aid olan hadisələrin xronoloji ardıcıllığı müəyyən edin:
1. Kürəkçayda İbrahimxəlil xanın Sisianov ilə müqavilə bağlaması
2. Quruqobu döyüşündə rusların qələbəsi
3. Bakı və Quba xanlıqlarının Rusiya tərəfindən işğalı
4. Gilgilçay döyüşündə Şeyxəli xanın rusları məğlub etməsi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

55. Hökmdarların fəaliyyətinə aid doğru sıraları müəyyən edin:

| № | Hökmdarlar | Fəaliyyəti |
|---|---|---|
| 1 | Batı xan | Cənubi Çini işğal edərək özünü imperator elan etdi |
| 2 | IV İvan | 1547-ci ildə çar titulu qəbul etdi |
| 3 | Əhməd xan | Qızıl Ordu dövlətinin itirilmiş qüdrətini bərpa edə bilmədi |
| 4 | Çingiz xan | Qaraqorumda keçirilən qurultayda Avropanın cənub-şərq hissəsinə yürüşlər təşkil etmək haqqında qərar qəbul etdi |

56. Xəritədə ulduz ilə işarələnmiş ərazidə yaranan dövlətin tarixinə aid xüsusiyyətləri müəyyən edin:



1. Sasani dövlətilə aramsız müharibəyə 532-ci ildə son qoyuldu
2. Əhalinin çox hissəsini yunanlar təşkil edirdi
3. Roma imperiyasından sonra ilk dəfə Qərbi Avropanı birləşdirdi
4. İtaliyanın şimalını ələ keçirmişdi

57. Uyğunluğu müəyyən edin:
1. Portuqaliya
2. İngiltərə
3. ABŞ
a. 1588-ci ildə donanması məğlub edildi
b. Saratoqa döyüşündə qalib gəldi
c. Avropada siyasi sərhədlərini müəyyənləşdirən ilk milli dövlət hesab edilir
d. Yorktaun döyüşündə məğlub edildi
e. Yediillik müharibədə qalib gəldi

**Sizə təqdim olunmuş mənbə əsasında tapşırıqları tarixi biliklərinizə əsasən *Cavab vərəqində* cavablandırın.**

Əsası Cavanşirlər tayfası tərəfindən qoyulan xanlıq İran hökmranlığı ilə mübarizədə yaranmış və möhkəmlənmişdir. Xan gəncliyində qardaşı Behbudəli bəylə Nadir şahın yanında qulluq edirdi. Lakin 1738-ci ildə qardaşı edam edildikdən sonra doğma yurduna qayıtmadı. Nadir şah tərəfindən təqib edildiyinə görə bir müddət Zəngəzur yaylağında, Qara Murtuza bəyin yanında oldu, sonra isə öz tərəfdarlarını toplayaraq, inzibati mərkəzlərə - Gəncəyə, Naxçıvana, Şəkiyə və digər yerlərə yürüşə başladı. İran və ona düşmən olan yerli feodalların hücumlarından qorunmaq üçün gənc xana etibarlı qala lazım idi. Kəbirli mahalında ilk iqamətgah qalasını tikdirdi.Xanlığın qüdrətinin artması tezliklə bəzi feodal məliklərini narahat etdi. Onlar xana qarşı birgə çıxış etmək haqqında razılığa gəldilər. Məliklər Şəki xanı Hacı Çələbiyə məlumat verərək bildirdilər ki, "... xan burada taxta çıxmış, qala və səngər tikdirmişdir. Əgər dəfində bir qədər təxir edilsə, sonra onun qarşısında durmaq mümkün olmayacaqdır".

58. Tarixi biliklərinizə mənbədə bəhs edilən xanlığı (1) və əsasını qoyan şəxsi (2) müəyyən edin:

59. Mətndə bəhs edilən Hacı Çələbiyə müraciətin nəticələrini tarixi biliklərinizə əsasən müəyyən edin: (azı iki nəticə)

60. Mətndə bəhs edilən xanın Kərim xan Zəndin ittifaq təklifini qəbul etməsinin səbəbini tarixi biliklərinizə əsasən müəyyən edin:

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

## Ədəbiyyat

61. İ.Nəsiminin yaradıcılığına aid doğru fikirləri müəyyən edin.
1. Əruz və heca vəznlərində əsərlər müəllifidir.
2. Yalnız lirik növdə əsərlər yazıb.
3. Əsərlərinin hamısını təriqət mövzularına həsr etmişdi.
4. Dünyəvi şeirlərinin bir qismini ictimai-fəlsəfi məzmunlu şeirlər təşkil edirdi.
5. Şairin ədəbi irsində təbiətə həsr edilmiş əsərlər də var.
A) 1, 3 B) 2, 3, 4 C) 1, 2, 5
D) 2, 4, 5 E) 1, 3, 4

62. "Qazan xanın evinin yağmalandığı boy"a aid ***yanlış*** fikri müəyyən edin.
A) Qazan xanın yurdundan uzaqlaşdığını görən kafirin casusu Şöklü Məliyə xəbər verir.
B) Qazan xan yuxusu Qaragünə tərəfindən tam yozulandan sonra yurdundan xəbər almağa gedir.
C) Bu boyda iki obraz qara qayğulu yuxu görür.
D) Qazan xan oğuz bəyləri tərəfindən qınanılacağından ehtiyat edir.
E) Sarı Salmaş Qazan xanın yurdu üstündə şəhid olur.

63. "Müsibəti-Fəxrəddin" əsərindəki Fəxrəddin obrazı əsasında cədvəli tamamlaya biləcək fikirləri müəyyən edin.




1. Səadətə hörmət edilməsini və düşmənin bağışlanmasını istəyir.
2. Şəriətin göstərdiyi yolun doğru olmadığını deyir.
3. Özünün arzularına çatmadan, cavan vaxtında ölməsini rəva bilmir.
4. Rüstəm bəyin yenidən intiqam almaq istəməsini eşitdikdə Fəxrəddin də qardaşı kimi qan tökməyə razı olur.
A) 2, 4 B) 2, 3 C) 1, 2
D) 3, 4 E) 1, 3

64. Xurşudbanu Natəvana aid əsərlərin birində lirik qəhrəman vüsal arzusu ilə yaşayır, arzusuna çata bilmədiyi üçün əzab çəkir.
A) "Bənövşə" B) "Xudahafiz"
C) "Ey dust" D) "Bülbül"
E) "Dilbərə-dərdi dilimdən"

65. Biri epiqrafa aid edilə bilər.
A) Yazıçı əsərdə danışılan əhvalatla oxucunu yığcam şəkildə tanış edir.
B) Əsər boyu qaldırılan məsələlər bu hissədə yekunlaşır.
C) Ölkə, məkan yer mənalarında işlənir.
D) İfadə etdiyi məna ilə oxucunun diqqətini əsərin məzmununa yönəldir.
E) Hadisələrin inkişafını müvəqqəti dayandırıb hansısa məsələ ilə bağlı münasibət bildirilir.

66. Hansı cərgədə verilmiş əsərlərdə aşağıda qeyd edilmiş xüsusiyyətlərdən yalnız ikisinə rast gəlmək mümkündür?
1. Epik növdədir. 2. Nəsrlə yazılıb.
3. Alleqoriyadan istifadə edilib.
A) "Yeddi gözəl", "Aldanmış kəvakib"
B) "Tülkü və Qurd", "Bəngü Badə"
C) "Səhhət və Mərəz", "Eşşək və Arılar"
D) "Aslan, Qurd və Çaqqal", "Dəvəsi itən kəs"
E) "Tərlanlar və elçilər", "Sirlər xəzinəsi"

67. "İskəndərnamə" poeması ilə bağlı verilən fikirlərdən doğru olanlarını müəyyən edin.
1. İskəndər Hindistandan Yunanıstana qədər olan ərazilərdə müxtəlif quruculuq işləri görür.
2. Feyləqusun hakimiyyət illəri xalq üçün çox məşəqqətli olmuşdu.
3. İskəndər taxta çıxdığı vaxt atasından qalan bütün qaydaları dəyişdirir və ədaləti bərpa edir.
4. Vəziri Zənci ilə müharibədə bəxtini sınamağı məsləhət görür.
5. Elmlə, hünərlə! – Başqa cür heç kəs
Heç kəsə üstünlük eləyə bilməz! – fikrini Ərəstu İskəndərə məsləhət üçün demişdi.
A) 1, 4 B) 2, 3 C) 3, 5
D) 2, 4 E) 1, 5

68. Cədvələ əsasən ***uyğunsuzluğu*** müəyyən edin.

| | Fikir | Doğru / Yanlış |
|---|---|---|
| A) | *"Rəşid bəy və Səadət xanım"* əsərində dövrünün ailə-məişət məsələlərinə də toxunulur. | Doğru |
| B) | *"Ev tərbiyəsinin bir şəkli"* komediyasında ictimai-siyasi məsələlər tənqid edilir. | Yanlış |
| C) | *"Pəhləvanani-zəmanə"* neft mövzusunda yazılmış ilk əsərlərdəndir. | Yanlış |
| D) | Müəllif *"Guş qıl"* ictimai məzmunlu müxəmməsində insanları musiqidən uzaq qaçmağa səsləyir. | Yanlış |
| E) | "Tərlanlar və elçilər" əsərində Q.Zakir tərbiyəvi məsələlərə toxunmuşdur. | Doğru |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

69. Dövrlərin müqayisəsində ***yanlış*** fikirləri müəyyən edin.




1. Əlimizə gəlib çatan yazılı ədəbiyyat nümunələrinin hamısı fars dilindədir.
2. Yalnız lirik növdə olan əsərlər yazılırdı.
3. Ədəbiyyat tariximizdə yeniliklər olmuşdu.
4. Həm nəsrlə, həm də nəzmlə yazılan əsərlərə rast gəlmək olur.
5. Ana dilində ilk əsərlər yazılıb.
6. Bu dövrdə yazılan əsərlərdən biri də "Töhfətül-İraqeyn" əsəridir.
A) 1, 4, 6 B) 2, 3, 5 C) 2, 4, 6
D) 3, 4, 5 E) 1, 4, 5

70. "Badi-səba, mənim dərdi-dilimi" əsəri haqqında ***yanlış*** fikri müəyyən edin.
A) Qoşma janrında, heca vəznində yazılıb.
B) Həsrət içində qovrulan sədaqətli aşiq heyva kimi saraldığını bildirir.
C) Sevdiyini "Yer üzünün qibləgahı" adlandırır.
D) Əsər lirik qəhrəmanmın səhər yelinə müraciəti ilə başlayır.
E) Sonda ümidsizliyə düşən aşiq sevdiyini "büti-ziba" adlandırır.

71. M.F.Axundzadənin "Aldanmış kəvakib" əsəri ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Hadisələr min iki yüz altmış üçüncü ildə yazın əvvəlində, Novruz bayramından bir gün keçmiş sarayda baş verir.
2. Münəccimbaşı təhlükəni aradan qaldırmaq üçün şahdan möhlət istəyir.
3. Şahın yerinə ən günahkar adam kimi Yusif Sərracın gətirilməsini Mövlana Cəmaləddin təklif edir.
4. Yusif ulduzlardan gələn təhlükəni eşidib şahlıq vəzifəsindən imtina etmək istəyir.
5. Sərdarlıq vəzifəsini Yusif dostu Qurban bəyə həvalə edir.
6. Yusif Sərrac hakimiyyətə gələndə ruhanilərin sayına məhdudiyyət tətbiq edir.
A) 1, 3, 4 B) 2, 3, 4 C) 2, 5, 6
D) 1, 2, 5 E) 3, 4, 6

72. “Keçəl Həmzənin Qıratı qaçırması” qoluna aid *(“Koroğlu” dastanı)* hadisələrin düzgün ardıcıllığını müəyyən edin.
1. Xotkar Hasan paşaya 40 gün möhlət verir ki, Koroğlunu öldürsün.
2. Keçəl Həmzə Qıratın gətirilməsi qarşılığında Hasan paşadan kiçik qızını istəyir.
3. Mehtər Murtuz Koroğlunun igidliyinin yarısının Qırat olduğunu deyir.
4. Bolu bəy Hasan paşadan pəhləvan Qəcər Alını, bir də Mehtər Murtuzu ona verilməsini istəyir.
A) 1, 2, 3, 4 B) 1, 3, 4, 2 C) 3, 1, 4, 2
D) 1, 4, 3, 2 E) 1, 2, 4, 3

73. M.F. Axundzadənin yaradıcılığı ilə bağlı fikirlərdən hansı doğrudur?
A) Bədii yaradıcılığa epik əsərlərlə başlayıb.
B) “Hekayəti-xırs quldurbasan” əsərində fırıldaqçılıq, cəhalət tənqid edilirdi.
C) “Zəmanədən şikayət” əsəri avtobioqrafik səciyyə daşıyır.
D) “Aldanmış kəvakib” əsəri ilə hekayə janrının əsasını qoyur.
E) “Hekayəti-mərdi-xəsis” komediyasında Hacı Qara və Heydər bəy satirik qəhrəmanlardır.

74. Cədvəldəki ***uyğunsuzluğu*** müəyyən edin.

| | Nümunə | Fikir |
|---|---|---|
| A) | *Zülf töküb üzə dilbər,<br>Çıxıbdı düzə dilbər.<br>Duvaq salın üzünə,<br>Gəlməsin gözə dilbər.* | Mərasim nəğməsinə aid nümunədir. |
| B) | *Əzizim, vətən yaxşı,<br>Geyməyə kətan yaxşı.<br>Gəzməyə qürbət ölkə,<br>Ölməyə vətən yaxşı.* | Bu janrın özünəməxsus sabit forma xüsusiyyətləri var. |
| C) | *Dəlilərim, bu gün dava günüdü,<br>Müxənnət ölkəsi talanmaq gərək!* | Xalqın igid oğullarını düşmənlə döyüşə, qəhrəmanlığa, mərdliyə səsləmək üçün oxunur. |
| D) | *Nənəm, a nazlı qoyun,<br>Qırqovul gözlü qoyun,<br>Pendiri kəsmə-kəsmə,<br>Qatığı üzlü qoyun.* | Nəğmələrin ən qədimi olan əmək nəğməsinə aid holavardır. |
| E) | *Tüstüsüz damlar,<br>Sarı badamlar,<br>Tənbəl adamlar<br>Bu balama qurban.* | Əsasən analar körpəni əyləndirmək, əzizləmək üçün oxuyur. |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

75. Verilənlərdən birinin qafiyə quruluşu ***fərqlidir.***
A) “Dəhnamə” (Ş.İ.Xətayi)
B) “Türkün nəğməsi” (M.Hadi)
C) “Gənclərə nəsihət” (Ə.X. Şirvani)
D) “Qafqaz müsəlmanlarına xitab” (S.Ə.Şirvani)
E) “Leyli və Məcnun” (M.Füzuli)

76. Ş.İ.Xətayinin “Dəhnamə” əsəri əsasında cədvəldə uyğunluğu müəyyən edin.

| Səbəb | Nəticə |
|---|---|
| 1. Məşuqənin tayı-bərabəri olmayan məğrur bir gözəl olduğunu görür.<br><br>2. Bağban Pərinin hüzuruna gedir və çarəsiz qasid gördüyünü ona deyir. | a. Aşiqin göndərdiyi məktubu ("kitabı") parçalayır və elçini xar edərək geri qaytarır.<br>b. Bağbanla görüşür və aşiqin gəlməsinə icazə verir.<br>c. Səba Məşuqənin yanına necə gedəcəyi haqqında düşünür.<br>d. Elçinin kimin elçisini olduğunu öyrənmək üçün yanına çağırır. |

A) 1-c, 2-d B) 1-b, 2-c C) 1-a, 2- b
D) 1-a, c, 2- b, d D) 1-d, 2- a, b

77. Aşıq Ələsgərin *“Bir ay yarım nobahardan keçəndə”* misrası ilə başlayan qoşması haqqında verilən fikirlərdən ***yanlış*** olanı müəyyən edin.
A) Erməni daşnaklarının hücumları ucbatından elin yaylaqlara qalxa bilmədiyi vurğulanır.
B) Vətənin dar günündə dağların aldığı qəmli mənzərə əhatəli təsvir edilir.
C) Əsərdə müxtəlif dağların adı çəkilir.
D) Aşıq Ələsgər qoşmanın hər bəndində dağlarla bağlı yeni fikir deyir.
E) Saf havalı dağlarda ellərin qurduğu büsat, çeşmə başında gözəllər yığnağı sənətkarın ilhamını coşdurur.

78. S.Ə.Şirvaninin “Guş qıl...” əsərinin forma xüsusiyyətləri ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Əsər ictimai mövzuda yazılıb.
2. Şeir vahidi bənddir.
3. İlk bəndin qafiyə quruluşu aaabb şəklindədir.
4. Şeir əruz vəznin rəməl bəhrində yazılıb.
5. Orta və sonuncu bəndlərin qafiyə quruluşu eynidir.
6. Məsnəvi formasında olan əsərin şeir vahidi beytdir.
A) 2, 4, 5 B) 4, 5, 6 C) 1, 3 4
D) 1, 3, 5 E) 2, 3, 4

79. Verilənlərdən ***yanlış*** olanını müəyyən edin.
A) Hekayə, təmsil, povest, poema, roman və s. yazılı ədəbiyyat nümunələridir.
B) Şeiri nəsr əsərlərindən fərqləndirən onun axıcılığı, ahəngi və musiqiyə uyğunluğudur.
C) Əfsanə, əsasən, xalqın tarixini, xəyal və arzularını özün də əks etdirir.
D) Təmsil həm nəzmlə, həm də nəsrlə yazıla bilər.
E) Bədii ifadə vasitələrində sözün məcazi mənada işlənməsi zəruri hesab olunur.

80. S.S. Axundovun "Nürəddin" hekayəsi əsasında cədvəldəki doğru fikirləri müəyyən edin.

| | |
|---|---|
| Nürəddin | 1. İmamverdi babanı yoxlamağa getmək istəyərkən Əmiraslanın pis niyyətindən xəbərdar olur.<br>2. İmamverdi babanın necə olduğunu öyrənmək üçün meşəyə doğru qaçır. |
| Rəhim | 3. Uşağın boynundakı duanın içinə baxarkən "Gülüstan" kitabı olduğunu görür.<br>4. Baharın Nürəddini qoruya bilməyəcəyini deyir. |
| Gülpəri | 5. Evə gec gəldiyi üçün Nürəddini döyür.<br>6. Hacı Nəsirin ölümündən sonra peşman olur və Nürəddinlə mehriban davranır. |

A) 1, 3, 5 B) 2, 3, 4 C) 1, 2, 5
D) 1, 4, 5 E) 2, 3, 5

81. Verilən fikirlərdən hansılar klasteri tamamlaya ***bilməz.***




1. Ehtiyac içində olduğu üçün çarəsizlikdən corab toxuyub məktub yazana satmağa gətirmişdi.
2. Savadsız olsa da, qürurlu bir qadın idi.
3. Ona edilən yaxşılığı unutmur.
4. Məktubu daha düzgün yazmaq üçün oğlanı öz evlərinə dəvət edir.
5. Oğlunun dediklərinin eynisini kimə desə də, istədiyi kağızı yazdıra bilmirdi.

A) 1, 3, 4 B) 1, 4, 5 C) 2, 3, 5
D) 2, 4, 5 E) 1, 2, 3

82. Nümunədə işlənmiş bədii təsvir vasitələrini müəyyən edin.
*Mənim könlüm deyir ki,*
*Həyat ondan küsənləri incidər.*
*Möhkəm dəzgah, şirin əmək, inci tər*
*Hələ qarşımızdadır!*
A) Birinci misrada epitet və metafor işlənib.
B) İkinci misrada metonimiya aid nümunə var.
C) Bütün misralarda epitetə aid nümunə var.
D) Bir və ikinci misralarda metafor, üçüncü misrada isə epitet işlənmişdir.
E) Nümunədə bütün təsvir vasitələrindən istifadə edilmişdir.

**Açıq tipli test tapşırıqları:**

83. Nizami Gəncəvinin əsərləri əsasında cədvəldəki uyğun fikirləri müəyyən edin.

| *"Sultan Səncər və qarı"* əsərinə aid doğru fikirlər | *"Yaralı uşağın dastanı"* əsəri haqqında ***yanlış*** fikirlər |
|---|---|
| 1. Qarı padşahın ədalətli olduğunu bildirsə də, onun xadimlərinin zülm etdiklərini deyir.<br>2. "Padşah ölkəsini abad görmək istəyirsə, xalqını xoşbəxt etməlidir" fikri qarının dili ilə deyilir. | 3. Uşağın ayağının sınmasına səbəb dostlarının onu quyuya atması olmuşdu.<br>4. Yaralanmış uşağı sevən dostlarından biri bu hadisənin gizli qalmasını və heç kəsin bilməməsini istəyir. |

84. Cədvəldə verilənlər əsasında doğru fikirləri müəyyən edin.

| "Molla Nəsrəddin" | "Füyuzat" |
|---|---|
| 1. Jurnalın nəşri ilə tənqidi-realist ədəbiyyat yaranıb inkişaf etmişdir.<br>2. Ədəbi məktəb yarada bilmişdir. | 3. Felyeton janrı publisistikaya bu jurnal vasitəsilə daxil olmuşdur.<br>4. Turançılıq ideyaları, vahid ümumtürk əlifbası yaratmaq füyuzatçıların islahatlarında əsas yer tuturdu. |
| 5. Mətbuat orqanı XX əsrin əvvəllərində yaranmış, sonrakı illərdə ideyaları ilə ədəbiyyatın inkişafına təsir göstərmişdir.<br>6. Azərbaycan romantizminin əsas ədəbi cəbbəxanasını təşkil edirdi. | |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

85. Cədvəldə qarşısında rəqəmlər yazılmış hansı fikirlərin yeri dəyişdirilsə, M.F. Axundzadənin "Müsyö Jordan və dərvişi Məstəli şah" əsəri ilə bağlı yol verilmiş ***yanlışlıq*** aradan qalxar?

| Obraz | Obraza aid fikirlər |
|---|---|
| Şəhrəbanu | 1. Şahbaz bəyin Parisə getmək istəyini ordakı "üzüaçıq qadınlarla" əlaqələndirir.<br>2. Müsyö Jordanın öldürülməsinə razı olmur.<br>3. Müsyö Jordanı "çör-çöp döşürən" adlandıraraq onun elmini əhəmiyyətsiz sayır. |
| Şərəfnisə | 4. Əsərin əvvəlində Şahbazın gedəcəyini eşidib ahəstə ağlaya-ağlaya yun darayır.<br>5. "Qurunun oduna yaşlar da yanacaq" deyərək Parisin dağılmasına razı olur. |

86. Nümunədə hansı bədii ifadə və təsvir vasitələri istifadə edilmişdir?

*Yağış yağır, rəqs eyləyir gur damlalar,*
*Sıra-sıra, inci-inci nur damlalar.*
*Göydə iki qara bulud toqquşaraq,*
*İldırımlar şaqqıldayır şaraq-şaraq,*
*Quşlar uçur yuvasına pırıl-pırıl,*
*Şırıldayır navalçalar şırıl-şırıl.*

1. inversiya 2. bədii sual 3. təkrir
4. epitet 5. metafor 6. metonimiya

87. N.Vəzirovun yaradıcılığı ilə bağlı uyğunluğu müəyyən edin.
1. Burjua kapitalistlərindən bəhs edən əsəridir.
2. Cəmiyyətdə insanlar arasında münasibətlərə həsr edilən əsəridir.
3. Mənəviyyatsız mülkədarların həyatından bəhs edən əsəridir.
a. "Adı var, özü yox"
b. "Vay şələkum-məəlləkum"
c. "Təzə əsrin ibtidası"
d. "Yağışdan çıxdıq, yağmura düşdük"
e. "Keçmişdə qaçaqlar"

***Sizə təqdim olunmuş nümunəni diqqətlə oxuyun və 88-90 saylı tapşırıqları yerinə yetirin.***

**Bəxtsiz cavan**

***Hacı Səmədağa.*** Bu nədir? Bu nədir? (Rəiyyətlərə) Siz İndiyədək bu otağın içini görübsünüzmü? Otağı toza-torpağa bulamağınız kifayət etmir, hələ bir əziz qonaqlar kimi istirahətlə də əyləşibsiniz?!
***Birinci kəndli .*** Hacı ağa, bizə Fərhad bəy izn verdi, biz də onun qulluğunda oturduq.
***Hacı Səmədağa.*** Fərhad bəy uşaqdır, amma sən ağsaqqal heyvansan, gərək ağa ilə nökərin yerini biləsən.
***Fərhad.*** Əmi, nə buyurursunuz? Məgər bunlar da bizim kimi adam deyillərmi?
***Hacı Səmədağa.*** Yox! Bunlar adam deyillər, rəiyyətdirlər, rəiyyət! Başa düşürsənmi?
***Fərhad.*** Xeyr, başa düşmürəm.
***Hacı Səmədağa.*** Onda bunlar çıxsınlar eşiyə, mən səni başa salım. Fərhad, sən uşaqsan, bu camaatə bələd deyilsən, rəiyyət tayfası bir bihəya məxluqdur. Bunlara nə qədər qapaz dəysə, bir elə tabe olarlar.
***Fərhad.*** Əmi, niyə belə sözləri buyurursunuz? Bu yazıqlar, vallah, insandırlar. Bizimtək, bəlkə də bizdən də bir az yaxşı insandırlar. Bunların da ürəklərində dərdləri var, qəmləri var, bu yazıqlara ürək dərdlərini heç kəsə söyləmək mümkün olmur. Aralarına yüzbaşı gəlir, onlarla qamçı ilə danışır. Pristav söyüşlə söhbət eləyir. İmdi mən bunlarla danışırdım, deyirlər ki, hər il barama qurdlarımız qırılır, çünki kitab üzü ilə tikdirməyə pul tapmırıq. Hətta deyirlər, bir zalım, nainsaf, Allahdan dönmüş var ki, onlardan ayda manata beş şahı müamilə alır. (Hacı səksənir.) Bax, təəccüb elədiniz?!
***Hacı Səmədağa.*** Yalan deyirlər!
*(Əbdürrəhim bəy Haqverdiyev)*

88. Cədvəli tamamlayın.

| *Obrazlar* | *Hər iki obrazın xarakteri ilə bağlı ortaq xüsusiyyətlər* |
|---|---|
| Hacı Səmədağa ("Bəxtsiz cavan") surəti ilə C.Məmmədquluzadənin "Qurbanəli bəy" hekayəsində xarakter uyğunluğu olan obraz: | |

89. Mətn əsasında cədvəli tamamlayın.

| *Obrazlar* | *Rəiyyətə (kəndlilərə) olan münasibəti* |
|---|---|
| Hacı Səmədağa | |
| Fərhad | |

90. Əsərlərin forma xüsusiyyətləri əsasında cədvəli tamamlayın.

| *Ə.Haqverdiyev, "Bomba"* | *Ə.Haqverdiyev, "Bəxtsiz cavan"* |
|---|---|
| 1. | 1. |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı